Respublika.- 2018.- 3 iyun.- S.7

*Aqrar sahə*

# Zaqatalanın işgüzar təsərrüfat həyatı

Bu il yenə Zaqatala tütünçüləri yüksək göstəricilər qazanmaq əzmi ilə işə girişiblər. Onlar bu il 750 hektarda tütün əkməyi proqnozlaşdırıb. Rayonda 230-dan çox fermer tütün əkini ilə məşğul olur. Fərdi qaydada əkən fiziki şəxslər də az deyil. Tütün istehsalçıları Assosiasiyasının rəhbəri, "Tərəqqi" medallı Telman Həsrətov, uzun illər təsərrüfatla ünsiyyətdə olan, artıq peşəkar təsərrüfatçı kimi tanınan Xuraman İbiyeva və onlarla başqaları tütünçülüyün əvvəlki şöhrətinin qaytarılması, onun əsl inkişaf yoluna düşməsi üçün əzmkarlıqla çalışırlar. İndi rayonda əkinin sürət və keyfiyyəti uğrunda əsl təsərrüfat yarışı hökm sürür. Bütün təsərrüfatlarda şitil əkənlər də var, əkini çoxdan başa çatdırıb indi sahələrə aqrokimyəvi xidmət göstərənlər də. Rayonun Yengiyan, Aşağı Tala kəndlərinin, Əliabad qəsəbəsinin sakinləri daha çox hektarlara tütün əkirlər.

Zaqatala kümdarları da 2018-ci ilin təsərrüfat həyatına uğurlu nəticələr yazmağı qərara alıblar. Ötən il respublika üzrə bu sahədə üçüncü yer tutan Zaqatala baramaçıları bu il nəticəni bir qədər də yaxşılaşdırmaq əzmi ilə çalışırlar. Bu il rayon üzrə 988 qutu rayonda 1280 nəfər arasında paylanmışdır. İpəkqurdu toxumunun paylanmasında ötən il meydana çıxan bəzi çətinliklər bu il aradan qaldırılmışdır. Bunun başlıca səbəblərindən biri qısa zamanda kümçülükdən xeyli gəlir əldə olunmasıdırsa, digər həvəsləndirici amil ipəkçiliyin yem bazasının möhkəmləndirilməsi məqsədilə rayonda möhkəm bünövrə yaradılmasına rəhbərlik səviyyəsində xüsusi diqqət və qayğı göstərilməsidir. Zaqatalada olarkən baramaçılıqla bağlı yaxşı bir xəbər də eşitdik. Rayonun Mamrıx kəndinin sakini Ramiz Surxayev artıq barama yığımına hazırlaşırdı. Eşidənlər, bilənlər və görənlər söylədilər ki, əvvəlki ildə olan ipəkqurdu şaxlarında qalan baramalarda yaranan kəpənəklərdən əldə olunan toxumlar yuxarıda adı çəkilən şəxs tərəfindən və artıq qurdlar dördüncü yaşlarını başa vurub barama sarımaq ərəfəsindəydi. Yazını hazırlayarkən əlaqə saxladıq və öyrəndik ki, Ramiz kişi rayonda ilk nübar kimi məhsul əldə edib. Özünə yeni verilən ipəkqurdu toxumlarından da nəzərdə tutulandan çox məhsul götürməyə çalışır.

Bəli, Zaqatalanın tütünçülük və baramaçılıq kimi digər təsərrüfat sahələrində də bu cür işgüzarlıq, qaynarlıq hökm sürür. May ayının birinci iki on günlüyündə rayon üzrə 553 hektarda tütün, 791 hektarda bostan məhsulları, 789 hektarda pomidor, xiyar, 547 hektarda kartof, 3868 hektarda qarğıdalı, həmçinin kifayət qədər günəbaxan, tərəvəz məhsulları, paxlalı və yem bitkilərinin əkilməsi də bunu aydın göstərir.



Bu dəfə yolumuzu Zaqatalanın Lahıc kəndindən salmağı qərarlaşdırdıq. İsmayıllı rayonundakı Lahıc qəsəbəsi respublikadan, xarici dövlətlərdən gələn qonaqların diqqətini tarixi abidələrin, zəngin və çox-çox qədimlərlə səslənən müxtəlif sənətkarlıq nümunələrinin ünvanı kimi cəlb edirsə, Zaqatalanın Lahıc kəndi özünün əsl təsərrüfat qaynarlığı, əkinçiliyə marağı ilə maraqlıdır. Bax, yazımızın istiqamətinə uyğun olaraq biz də yolumuzu bu ünvandan saldıq. Bu kəndə gəlişimizin bir məqsədi də adını çox eşidib özünü görmədiyimiz, Sovetlər birliyi vaxtında uzun illər kolxozda iqtisadçı, mühasib vəzifələrində çalışan bu gün müstəqil dövlətimizin təsərrüfatda fəaliyyət göstərən minlərlə sahibkardan biri kimi nümunə göstərilən Xuraman İbiyeva ilə həmsöhbət olmağımız idi. Səliqə-sahmanlı kənd bələdiyyəsinin həyətində rastlaşdığımız bələdiyyə sədri Adilə Aslanova məqsədimizi biləndə - vaxtında gəlmisiniz, elə hazırlaşırdım sahəyə Xuramanın yanına gedim — dedi: Qısa söhbətimizdən kənd haqqında, kiçik də olsa, arayış aldım. 2235 nəfər əhalinin yaşadığı bələdiyyə ərazisində 638 təsərrüfat var. Zaqatalanın təsərrüfat həyatının ən çox qaynadığı yaşayış məntəqələrindəndir. 32 hektarda tütün əkilir. Ötən il 600 kiloqramdan çox barama istehsal olunub. Ərazidə 500 hektara yaxın fındıq bağı var, bələdiyyənin özü 10 hektarda yeni fındıq bağı salıb. Yalnız ötən il 200 tondan çox fındıq istehsal olunub satılıb. Heyvandarlığın inkişafına da münasibət lazımi səviyyədədir. Bu sahə ilə məşğul olan Novruz Məhərrəmov, İlqar Musayev kimi fermerlər var.

Bələdiyyə sədri Adilə Aslanova artıq iki seçkidir ki, bu idarəetmə qurumuna rəhbərlik edir. Bir sözlə, Lahıc bələdiyyəsinin qaynarlıq, işgüzarlıq çələnginə bürünən aqrar sahəsi ilə şifahi tanışlıq yaxşı təsərrüfat yaradır. Xuraman İbiyeva ilə iş başında, sahədə görüşəndə bunun şahidi olduq. Magistral yolun kənarında yerləşən sahə əkin üçün aqrotexniki qaydalara uyğun hazırlanmışdır. Kifayət qədər tütün şitili gətirilmiş, əkinin mütəşəkkil aparılması üçün lazım olan digər hazırlıqlar da yüksək səviyyədə görülmüşdür. - Belə olmasa iş ləngiyər, əkin keyfiyyətli aparılmaz, — deyə fermer Xuraman İbiyeva məlumat verdi. Əlavə edib onu da bildirdi ki, lazımi qədər əkin materialı da, mineral gübrə də var. Hətta kömək istəyən digər qonşu rayonlara da əl tuturlar. Fermer söhbət zamanı bildirdi ki, bütün işlərdə rayon rəhbərliyinin bələdiyyə və icra nümayəndəliyinin də dəstəyini hər gün görürülər. Elə bu məqamda - ay Adilə lap unutmuşdum, ipəkqurduna qulluq nə vəziyyətdədir, — deyə Xuraman xanım bələdiyyə sədrindən xəbər aldı. Hər işin qaydasında olduğu, ötən ilkindən çox barama uğrunda mübarizə aparıldığı cavabı onu sevindirdi və - Lahıc 2018-ci ildə də Zaqatalanın qaynar, işgüzar təsərrüfat həyatına öz layiqli töhfələrini verəcək - dedi:

— Zaqatalanın bugünkü qaynar, işgüzar təsərrüfat həyatı, rayon rəhbərliyi səviyyəsində bu həyatın hər gün daha da canlandırılması da eşitdiklərimizin, gördüklərimizin və əyani tanış olduqlarımızın təsdiqi oldu.

**Rasim AMANOV,**
**"Respublika".**